# Bir daha əlifbamız haqqında

Axundov Tiflisdə tərcüməçi kimi fəaliyyət göstərmiş və əlifba düzəlişi işinə 1850-ci ildən başlamışdır. Onun ilk cəhdi ərəb yazısının dəyişdirilməsi üzərində cəmlənmişdir ki, bu, Azərbaycan dilinin fonetik tələblərinə daha uyğun olacaqdı.

Əvvəlcə Axundov hər bir səsin ayrı hərf tərəfindən ifadə (ikiləşdirmə və məhəl qoymama olmaması şərti ilə) olunması fikri üzərində dayandı. Belə ki, ərəb əlifbasında 3 sait səs olduğu halda, Azərbaycan əlifbasında 9 sait səs olmalı idi. Daha sonra Axundov yazını onun sürətini aşağı salan nöqtələrdən və ilmələrdən azad eləmək istəyirdi. Üçüncüsü, əgər yazı davamlı olaraq hərflər qırılmadan yazılsa yazı yazmaq asanlaşar. Bu oxuculara sözün harada başlanıb harada bitməsini tapmağı asanlaşdırar.

Türk dilini saflaşdırmaq və türk leksikonunu ərəb, fars sözlərindən təmizləmək istəməyənlər mübahisələri qızışdırırdılar. Köhnə əlifba tərəfdarları təkcə Azərbaycanda deyil, Osmanlıda da sonda qalib gəldilər. Ən böyük müqavimət isə müqəddəs Quran ərəb dilində yazıldığı üçün ərəb dilini müqəddəs hesab edənlər tərəfindən oldu. Sonda Axundov başa düşdü ki, ərəb əlifbasında hətta cüzi dəyişikliklər eləmək mümkünsüzdür. İnstitutdakı arxiv materialları göstərir ki, İran da bu layihənin əti əleyhinə olmuşdur.

1878-ci ildən Axundov ərəb yazısını dəyişmək cəhdindən əl çəkdi və diqqətini bir neçə kirill əlifbası ilə dəyişilmiş latın əlifbasının üzərində mərkəzləşdirdi.

Lakin təklif olunmuş yazıya bir neçə kiril hərfləri daxil edilməsinə baxmayaraq Rusiya hökuməti onun tətbiqinə icazə vermədi. Yenə də layihə rədd edildi.

"Molla Nəsrəddin" (1906-1931) jurnalının redaktoru Cəlil Məmmədquluzadə ərəb yazısı və əlifba islahatları ilə bağlı fikirlərini belə bildirdi: "Bu heroqlifləri latın əlifbası ilə əvəzləmək vacibdir".

XX əsrin əvvəllərində hökumətin fəal üzvlərindən biri olan Nəriman Nərimanov da ərəb yazısını tənqid etdi. N. Nərimanov həll yolunu kiril əlifbasının qəbulunda gördü. O özü bu dəyişilmiş yazı ilə bir neçə əsərini yazmış, Azərbaycan fonetikasının səciyyəvi cəhətlərini daha da dəqiqləşdirmişdir.

Azərbaycan rəsmi olaraq 1923-cü il oktyabrın 20-də latın qrafikalı əlifbaya keçdi. Əvvəllər hər iki əlifba istifadə olunurdu. 1929-cu il yanvarın 1-dən Sovet hökuməti ərəb əlifbasının istifadəsinə qadağa qoydu. İri kitab yandırma kampaniyası da bu yazını yaddan çıxartmaq məqsədi güdürdü.

Azərbaycan SSR latın qrafikalı əlifbaya keçəndən 5 il sonra Türkiyə də bu əlifbaya keçdi. Lakin 10 il sonra Stalin türklərin bu addımına qarşı kiril əlifbasını Sovet İttifaqının bütün müsəlman ölkələrində tətbiq etdi.

1990-cı ildən Azərbaycanda yenidən latın qrafikalı əlifbaya keçidlə bağlı təşəbbüslər irəli sürülməyə başlanılmışdır. Yeni müstəqil əlifbaya keçməyin zəruriliyini elmi faktlarla əsaslandıran ilk alim Afad Qurbanov olmuşdur. 1 avqust 1990-cı il tarixində onun təşəbbüsü ilə Azərbaycan Əlifba Komissiyası yaradılmış və əlifba mütəxəssisi kimi bilik və bacarığı nəzərə alınaraq o, komissiyanın sədri təyin edilmişdir. Məhz Azərbaycan Əlifba Komissiyasının tərtib etdiyi yeni əlifba 1992-ci ildə təsdiq edilmiş və tətbiq edilməyə başlanılmışdır.

# Peşə təmayüllü siniflər

Azərbaycanda peşə təmayüllü siniflər ilk dəfə 2019-2020-ci tədris ilində 14 şəhər və rayonda ümumilikdə, 20 məktəbdə 420 şagirdlə fəaliyyətə başlamışdır. Hazırda 80 məktəb, 124 sinif olmaqla, 2500 nəfərə yaxın şagirdlə fəaliyyət göstərir. Həmçinin 35 ümumi təhsil müəssisəsində 700 nəfər şagird üçün "Sürücülük" modulu tədris olunur.

Layihənin məqsədi ümumi orta təhsil bazasında təhsil alanların peşə təhsilinə hazırlanması, onların peşə ixtisaslarına aid səriştələrinin inkişaf etdirilməsi, peşələr üzrə ilkin bilik və bacarıqlara yiyələnməsi yolu ilə əmək bazarına hazırlanmasının təmin edilməsidir.

Peşə məktəbləri ilə yanaşı, eyni zamanda məktəblərdə də peşə təmayüllü siniflər yaradılır, şagirdlərin dünyagörüşünün artırılması və peşələrinə daha yaxşı yiyələnməsi üçün müəyyən müəssisə və qurumlarla əməkdaşlıq qurulur, şagirdlər üçün təlim, seminar, təcrübə səfərləri təşkil olunur.

2021-ci il oktyabr ayından Qəbələ rayon Vəndam qəsəbə E. Mehdiyev adına 1 saylı tam orta məktəbdə də peşə təmayüllü sinif təşkil olunmuşdur. Peşə təmayüllü 10-cu sinif şagirdləri İT mütəxəssisi köməkçisi və dərzi köməkçisi olmaqla, iki ixtisas üzrə təhsil alırlar.

İndiyə qədər isə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinə təcrübə səfərlərimiz olmuş, Mərkəzin əməkdaşları ilə birlikdə "Peşə və karyera" mövzusunda təlim təşkil edilmişdir. Gənclərin inkişaf və karyera mərkəzinin Qəbələ nümayəndəliyi ilə əməkdaşlıq əlaqələri yaradılmışdır. Regionlar daxilində Peşə Sinifləri ilə əməkdaşlıq çərçivəsində Oğuz rayon Padar kənd tam orta məktəbin Peşə təmayüllü 10-cu sinif şagirdləri və Qəbələ rayon Vəndam qəsəbə 1 saylı tam orta məktəbin Peşə təmayüllü 10-cu sinif şagirdləri arasında "Xəmsə" dostluq görüşü olub və görüş çərçivəsində bilik yarışı keçirilmişdir. Növbəti illərdə isə bu siniflərdə ixtisas sayının artırılması nəzərdə tutulur.

**Nərmin KƏRİMOVA,**
**Vəndam qəsəbə 1 saylı tam orta məktəbin müəllimi.**

# Azərbaycan operası

Operanın qollarından biri. Azərbaycanda opera sənətinin əsası 1908-ci il yanvarın 12-də (25-də) Üzeyir Hacıbəyovun Hacı Zeynalabdin Tağıyev teatrında səhnələşdirilən və şərq-müsəlman aləminin ilk opera əsəri olan "Leyli və Məcnun"u ilə qoyulmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər milli opera, məhz, Üzeyir Hacıbəyovun "Şeyx Sənan" (1909, opera), "Ər-arvad" (1909, operetta), "Rüstəm və Söhrab" (1910, opera), "O olmasın, bu olsun" (1911, operetta), "Fərhad və Şirin" (1911, opera) və s. kimi əsərləri sayəsində inkişaf edib.

Bakıda opera ilk dəfə 1889-cu ilin mayında konsert ifasında səslənmişdir.

O zaman "Kaspi" qəzeti yazırdı: Bakıya operanın gəlişi bir daha sübut etdi ki, zəka, duyğu və zövq üçün teatr nə dərəcədə vacibdir.

Kütlələrin operaya olan marağı heç də Azərbaycan paytaxtı sakinlərinin musiqi zövqünə zidd deyildi.

XX əsrin əvvəllərində Şuşada və Bakıda verilən musiqili səhnəciklərin və «Şərq konsertləri»nin Azərbaycanda milli operanın yaranmasında da böyük rolu olmuşdur.

1908-ci il yanvarın 25-də Tağıyev teatrında Üzeyir Hacıbəyovun ilk operası olan "Leyli və Məcnun"-un ilk tamaşası olmuşdur. Azərbaycan mədəniyyətinin daxilində yaranan bu opera Azərbaycan musiqisində opera janrının formalaşması və təşəkkül tapmasının başlanğıcı idi.

# Apple şirkəti ilk kompüterini istehsal etdi

Şirkətin mərkəzi ofisi Kaliforniya ştatının Kupertino şəhərində yerləşir. 2005-ci ildən etibarən şirkətə Stiv Cobs rəhbərlik etmişdir.

Apple Macintosh, iPhone, Macbook şirkətinin ən tanınan məhsullarıdır.

Apple bir zamanlar fotokamera və printer kimi texniki qurğular da istehsal etmişdir. Hazırda isə onun istehsal etdiyi məhsullar arasında kompüterlər, monitorlar, mp3 pleyerlər və proqram məhsulları üstünlük təşkil edir.

2007-ci il yanvarın 9-da şirkətin adı Apple Kompüterdən Apple-yə çevrilmişdir. Buna səbəb olaraq "Apple kompüter" deyildiyində ağla gələn kompüterin onsuz da Mac olduğuna diqqət çəkilmiş, buna görə şirkətin adının bu ankı məhsulları daha yaxşı əks etdirmək məqsədiylə dəyişdirildiyi ifadə edilmişdir.

Apple dünyanın ən bahalı brendi kimi tanınır. 2011-ci ilin oktyabrında onun aksiyalarının dəyəri dünya üçün rekord qiymətə 422 milyard ABŞ dollarına çatıb.

Apple 10 dekabr 2011-ci ildə Nyu-Yorkun Mərkəzi vağzalında özünün ən böyük firma mağazasını açıb. Sahəsi 2,1 min kvadrat metr olan mağaza şirkətin əvvəlki mağaza sahəsi rekordunu 0,6 min kv.m. təzələyib. İlk müştəri mağazanın açılışında birinci olmaq üçün bir sutka növbədə durub.

# Vaksinasiya prosesi davam edir



Koronovirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə bütün ölkə ərazisində olduğu kimi Qəbələ rayonunda da əhalinin vaksinasiyadan keçməsi prosesi uğurla davam edir. Qəbələ sakinləri vaksinasiya prosesinin vətəndaşların sağlamlığı üçün vacib olduğunu nəzərə alaraq 3-cü (booster) doza vaksinin vurulmasında da xüsusi fəallıq və mütəşəkkillik nümayiş etdirirlər. Vaksin olunan vətəndaşlar koronavirus əleyhinə vaksinin ölkəyə gətirilməsini təmin etdiklərinə və hər bir vətəndaşın sağlamlığını diqqət mərkəzində saxladıqlarına görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə edirlər.

# "Omikron" ştammı

Virus geniş yayılanda və çoxsaylı infeksiyalara səbəb olduqda, onun mutasiyaya uğrama ehtimalı artır. Virusun yayılma imkanları nə qədər çox olarsa, dəyişmək imkanları da bir o qədər çox olur.

COVİD-19 virusu mutasiyaya uğrayaraq "Omikron" kimi yeni variantları meydana gətirir ki, bu da bizə bu virusun hələ bitməkdən çox uzaqda olduğunu bildirir. Koronavirusun "Omikron" ştammının sürətlə yayılması artıq dünya ölkələrindəki mövcud epidemioloji vəziyyəti daha da gərginləşdirib. Hələ ötən ilin əvvəlində COVID-19-a qarşı vaksinasiyaya başladıqdan sonra yoluxma hallarının azalacağı ilə bağlı proqnozlar verilsə də, bu ehtimallar özünü doğrultmadı. Yaz-yay aylarında koronavirusa yoluxma hallarının azalmasını görən bir çox ölkələr sərhədlərini xarici qonaqların üzünə açdı. Ancaq ötən müddət ərzində həm karantin qaydalarının yumşaldılması, həm də koronavirusun daha sürətlə yayılan "Omikron" ştammının yoluxma sayında üstünlüyə sahib olması yeni dalğa təhlükəsinin yaranmasına səbəb olub. Yaxın həftələrdə dünyada "omikron" ştamı ilə əlaqədar olaraq növbəti dalğanın başlayacağı ehtimal edilir. ÜST-nin proqnozlarına əsasən, mart ayında Avropa əhalisinin yarısından çoxu "omikron" ştamına yoluxacaq.

Aşkar edilmiş ilkin məlumatlar "Omikron"un "Delta" variantından




daha az ağır ola biləcəyinə dəlalət edir, lakin daha çox məlumata ehtiyac var və ÜST xəbərdarlıq edir ki, ona görə də bu ştamma "yüngül" variant kimi məhəl qoymaq olmaz. Buna görə də insanlar peyvənd olunmalı və virusun yayılmasının qarşısının alınması, o cümlədən fiziki məsafənin saxlanması, maskaların taxılması, tez-tez əllərin yuyulması və qapalı məkanların yaxşı havalandırılması ilə bağlı mövcud tövsiyələrə əməl etməlidirlər.

Ölkəmizdə epidemioloji vəziyyətin nəzarətdə saxlanılması üçün görülən tədbirlər çərçivəsində COVİD-19 virusunun genetik variantlarına dair mütəmadi analizlər aparılır. Aparılan araşdırmaların növbəti mərhələsində ölkə xaricindən gələn şəxslərdən götürülmüş nümunələrdən də göründüyü kimi, virusun "Omikron" variantı artıq Azərbaycanda da aşkarlanıb. Ölkədə hazırda 46 xəstəxana koronavirus xəstələrinin müalicəsi ilə məşğuldur. Aktiv daşıyıcılar olan xəstələr üçün isə ümumilikdə 10 min çarpayı ayrılıb. Müsbət haldır ki, hazırda həmin çarpayı ehtiyatının yalnız 10 faizi istifadədədir. Pandemiyanın başlamasından dərhal sonra Azərbaycanda görülən tədbirlər indi də səmərəliliyini göstərir. Nəticədə Azərbaycan koronavirus xəstəliyi səbəbindən həyatı itirənlərin az olduğu ölkələr sırasındadır.

Səhiyyə qurumları vətəndaşlarımızı yayılan yeni ştammdan qorunmaq üçün üçüncü dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 6 ay sonra qoruyucu immunitetin səviyyəsinin azalmasını nəzərə alaraq, bədənin anticisimlərini yenidən yüksək səviyyəyə çatdırmaq üçün gücləndirici (buster) doza ilə peyvəndləməyə çağırır.

Vaksinasiya ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına da riayət olunmalıdır. Sosial məsafənin saxlanılması, maskalardan istifadə və əl təmizliyi kimi qaydalar, virusun variantından asılı olmayaraq, xəstəlikdən qorunmağın və normal həyata qayıtmağın yeganə yoludur.